Adımız məfkurəmizdir

22 – 28 iyul 2025-ci il

# Türküstan

www.turkustan.az



**Aydın Mədətoğlu Qasımlı**
**filologiya üzrə fəlsəfə doktoru**

# Türklər bəşər tarixinin ruhudur

***Ən azı iyirmi beş min illik dövlətçilik tarixinə malik olan bir millətin, təbiidir ki, özünəməxsus mənəvi-əxlaqi, dini-fəlsəfi dünyagörüşü olmuşdur. Çox təəssüflər olsun ki, indiyə qədərki tədqiqat əsərlərinin çoxu subyektiv xarakter daşımış, ideoloji-siyasi düşüncə sisteminə tabe tutulmuş, Türk millətinin tarixi, mənəvi-əxlaqi, dini-fəlsəfi dünyagörüşü tamamilə saxtalaşdırılmışdır.***

***Tarix şüuru din duyğusu qədər qədimdir. Bu şüur insanların mənəvi aləmi və mədəni səviyyəsi yüksəldikcə daha da zənginləşmiş, dərinləşmişdir. İlkin ibtidai dövrlərdə ata-babalara tazim və onların təqdis edilməsi əcdad kultlarının təşəkkül tapmasına və getdikcə milli hiss və duyğuların yaranmasına gətirib çıxarmışdır.***

Həyatın insanlığa yüklədiyi imtahanların sonu yoxdur. Bu anlamda hər bir millət və xalq da sonu görünməyən sınaqlar qarşısındadır. Bu imtahanlardan şərəflə, ləyaqətlə çıxan xalq və millətlər həyatda yaşamaq haqqı qazanırlar. Tarix göstərir ki, bu yaşama haqqını qazanmaqda xalq və millətlərin elmi, texnoloji və iqtisadi inkişafı iləyanaşı mənəvi dəyərləri də mühüm əhəmiyyət kəsb edir. Din, əxlaq, hürriyət, ədalət və bunlara dayanan bütün mənəvi dəyərlər millətin yaşama haqqına bağlı dəyərlərdir.

Bu maddi və mənəvi dəyərləri vəhdətdə götürən Türk xalqı tarixin amansız sınaqlarından şərəflə çıxaraq həyatda yaşama haqqı qazanmışdır. Türk başlanğıcını mükəmməl bir soydan alan, təkamül yolu ilə formalaşan əzəmətli bir millətin adıdır.

Türklər bu bəlalı Yer kürəsinin cəfakeş övladları olmuş, Onlara «Yetkin İnsan» anlamına gələn «Türk» adını Tanrı Özü vermişdir (Mahmud Kaşğarlı).

Bəşər tarixinə özünün mənəvi-əxlaqi damğasını vuraraq qəbilə, tayfa, xalq və nəhayət millət mərhələsinəyüksəlmiş Türk kimliyi insanlığın yetkinlik, kamillik zirvəsinə ulaşmışdır. Türk kimliyindən soyundurulmuş, təcridedilmiş bəşər tarixi quru, cansız bir cəsədə bənzəyər. Bütövlükdə bəşər tarixi bir Bədəndirsə, Türk onun ruhudur. Bədəni Ruhsuz təsəvvür etmək, Kainatı Tanrısız təsəvvür etmək deməkdir.

Türk Tanrı tərəfindən bəşəriyyətə ərməğan edilən xüsusi missiya sahibidir. Türksüz bəşər tarixi etibarsız, içiboş, mənasız, ölü məzarıstana bənzəyərdi.

Türkün doğuşu Cahan üçün bayram, ölümü matəmdir. Tarix boyu ədalətə dayanan bir hakimiyyət quran Türklər milli, dini və insani duyğulara bağlı qalaraq bunların ahəngi içərisində Cahan hakimiyyəti idealına inanmış, əsrlər boyu Çin, Orta Asiya, Sibir, Hindistan, Rusiya, Əfqanıstan, Xorasan, Yaxın Şərq, İran, Azərbaycan, Qafqaz, İraq, Anadolu, Suriya, Rumeli, Şərqi və Orta Avropa, Balkanlar, Misir və bütün Şimali Afrikada hökmranlıq etmiş, tarix boyu bir çox dövlətlər və imperatorluqlar qurmuşlar. Bunlardan Turan, Aratta, Kuti, Lullu, Elam, Manna, Midiya,İskit (Saka, Skif), Alban, Şumer, Şərqi Hunlar, Qərbi Hunlar, Ağ Hunlar, Xəzərlər, Göy Türklər, Uyğurlar, Qarluqlar, Bulqarlar, Qaraxanlılar, Qəznəvilər, Xarəzmlər, Səlcuqlular, Moğollar, Tulunilər, İxşidilər, Osmanlılar,Elxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və s. tarixin danılmaz dövlət vəimperatorluqlarıdır. Bu müzəzəm tablo Türklərin iyirmi beş min illik bir mədəniyyətə sahib olduqlarının göstəriciləridir.



Tanrının bütün Kainata hakimliyini qəbul edən Türklər Cahan hakimiyyətini onlara Tanrının həvalə etdiyi düşüncəsinə inandıqlarından bu Tanrı əmanətinə saygı göstərmək üçün təkcə özlərinin deyil, hakim olduqları bütün məmləkət, xalq və dinlərin hamisi kimi çıxış etməyi özlərinə borc bilmiş və üç qitədə hakim olduqları iyirmi beş min illik hakimiyyətləri dönəmndə bu Tanrı borcunu yerinə yetirməyə səy göstərmişlər. Bir yandan sayı bəlli olmayan səkkizayaq xərçəng Çinlə, bir yandan qoyun dərisinə girmiş canavar perslərlə, bir yandan nüfuzlu və əridici Bizansİmperatorluğu ilə, bir yandan barbarlıqlarını hələ tam atmamış slavyanlar, latınlar, germanlar, anqlo-saksların istila alətlərinə çevrilmiş mürtəce kilsə xristianlığı ilə uzunmüddətli mücadilələr belə Türkləri sarsıda bilməmiş, əksinəİsa Məsihdən on səkkizinci əsrə qədər tək bir qələbə göstərilə bilməz ki, o nəticə baxımından Türklərinki qədər böyük və cahanşümal olsun.

***Təbiətlə birgə addımlayaraq bişən, Təbiət və Cəmiyyət qanunlarını qavrayan, müsbət düşünüb müsbət davranan Türklər İnsanlıq üçün sözün həqiqi anlamında bir Tanrı neməti olmuşdur. Əgər Türklər olmasaydı, xaçlıların vəərəb ortodokslarının əlində bəşər sivilizasiyasından, mədəniyyətindən əsər-əlamət belə qalmazdı. Şərqin ilk rönesansı - intibahı Türklərin adı ilə bağlıdır. Avropanın XVI əsr rönesansını Türklər XII əsrdə həyata keçirmişdilər. Tolerantlığı dünyaya bəxş edən ilk millət də məhz Türklərdir. Belə ki xaçlıların və ərəblərin din qovğaları ilə xarabazarlığa çevrilən Şərq Səlcuq, Osmanlı və Səfəvi Türklərinin sayəsində yenidən canlandı, bölgəyə bir sakitlik, bir sülh hakim oldu. Türklər Yaxın Şərqə ümumi bir nizam-intizam, sabitliklə yanaşı bir doğruluq, bir ədalət gətirməklə Romalıların «haqq güclünündür, zorundur» tezisini tarixə gömdülər. Bütün dünya hüququ bu gün belə Türklərin «haqq ədalətdədir» tezisinin damğasını daşımaqdadır. Bu damğa ilə özü və üzü qapqara bir aləmə Türklər yalnız doğruluğu, bir-biri ilə anlaşma zehniyyətini, ədaləti gətirmiş, həm də onlarəməlləri ilə yerinə yetirmişlər. Türklər haqq, ədalət yolunda milyonlarla şəhid vermiş bir millətdir.***

Türklərin bu ədalətli və insani dünya nizamı məfkurəsi və onun tətbiqi sayəsində gördükləri işlərin nəticəsidir ki, tarixən Ərəb Xilafəti və Bizans İmperatorluğundan təzyiq və zülm görən bir çox xalqlar, xüsusən, xristian xalqları orta əsrlərdə öz milli varlıqlarını və dinlərini qoruyub saxlamaq üçün Türklərə sığınmış, onları özlərinin xilaskarı sanmış, Türk hakimiyyətini könüllü olaraq qəbul etmişlər. Orta əsr Türk, İslam qaynaqları ilə yanaşı xristian mənbələri də Türklərin bir hami, bir qurtarıcı olduqlarını təsdiqləməkdədir.

Türklər tarixən hakimiyyətləri altında olan xalqlarla özləri arasında heç bir ayrı-seçkiliyə yol verməmişlər. Bütün bunlar xristianlığın «Yaşamaq üçün qovğa» təfəkkürünün əksinə olaraq Türk sülh və əmin-amanlığı, ədalət vədoğruluğu Türklərin orta əsr dünyasına nə bəxş etdiyini bir daha tarix qarşısına sərgiləməkdədir. Əgər Türklərin Cahan hakimiyyəti ideyası ədalətə, insanlıq duyğularına, millətlərin arzu və istəklərinə əsaslanmasaydı, Türk hakimiyyətinin əzəmət və qüdrətinin uzun əsrlər boyu yaşaması da mümkün olmazdı. Türklərin ədalətə, insanlıq duyğusuna, hakim olduqları xalqların arzu və istəklərinə əsaslanmasının nəticəsidir ki, Onlar ingilislərin ancaq yüz il hakim ola bildikləri Hindistanda doqquz yüz il, Qərbi Avropalıların əlli-altmış il əsarətdə saxlaya bildikləri ərəb ölkələrində təqribən min il hökmranlıq etmişlər. Çünki Türklər Avropalılardan fərqli olaraq yerli xalqlara ikinci dərəcəli xalq kimi baxmamış, onlara nə öz dillərini, nə də mənsub olduqları dinlərini zorla qəbul etdirməmişlər. Türklərin bu insani davranış və siyasətləri hər şeydən əvvəl Onların Özlərinin ilahi mənşədən gəlməsinəinanmaları və Cahan hakimiyyəti məfkurəsindən irəli gəlmişdir. Bu hiss və duyğular Türkləri İslam dini vəmədəniyyətinə yiyələnmələri ilə daha da güclənmişdir. İslam dinini Öz Cahan hakimiyyəti və dünya nizamına uyğun görən Türklər digər dinlərdən fərqli olaraq İslam dinini daha münasib bilmiş, bu dini Öz Ruh və inanclarına daha uyğun hesab etmiş, onu ümumi bir din halına gətirməklə Tanrının Həzrəti Məhəmməd Peyğəmbərə (s) buyurduğu istəyi şərəflə yerinə yetirmişlər. İstər Qaraxanlı, istər Qəznəvi, istər Səlcuqlu, istər Teymurlu vəistərsə də Osmanlı və Səfəvi Türkləri bu tarixi missiyanı yerinə yetirərkən hakim olduqları ərazilərdə siyasi iqtidarı, ictimai ədaləti, dinlərarası ahəngi qorumuş, Türk haqqında məşhur hədisdəki «Cundi-Allah» - Allahın ordusu adını doğrultmuşlar.

***Türk xalqı tarixlərinin ilk çağlarında siyasi təşkilat və hərbi qabiliyyətləri sayəsində qonşularını məğlub edərək üstünlük qazanmışlar. Qədim Türk yazılı abidələri və Türk dastanlarının tədqiqi göstərir ki, Türk xalqı hələqədimdən çox yüksək bir milli duyğu və şüura malik olmuşdur. Bu milli duyğu və şüurla milli hakimiyyətlərini yaradıb gücləndirən Türkləri bu vəziyyət təmin etmədiyindən nəticədə Onlar Dünya hakimiyyəti idealına bağlanaraq bu işə səylə girişmişlər...***

(ardı gələn sayımızda)